F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün tövsiyə biblioqrafiyası

**Bakı-2024**

**Tərtibçi:** **Nuray Əlizadə**

**Ailə:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Əlizadə; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2024.- 41 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

# TƏRTİBÇİDƏN

Uşaqların həyatında ilk sosial mühit ailədir. İnsanın şəxsiyyət kimi böyüməsində, cəmiyyətə adaptasiya olmasında ailənin rolu böyükdür. Həm ən kədərli, həm də ən xoşbəxt günlərimizi bölüşdüklərimiz ailə üzvlərimizdir. Ailə sevgisi insan həyatının ən səmimi sevgisidir. Bu sevgi mənfəət əldə etməyi hədəfləmir; sevgidən başqa heç nə ilə dolu deyil. Ailə fərdin həyatında sosiallaşma funksiyasını yerinə yetirir. Uşaq dünyaya gələndə insan varlığı və cəmiyyətdəki rolu haqqında heç nə bilmir. Böyüdükcə o, yalnız bir insan olduğunu və insanların qarşılıqlı əlaqəsinin sağ qalmaq üçün çox vacib olduğunu öyrənir. Ailə sosial cəhətdən fəal olmayan insanı uyğun sosial varlığa çevirir. Ailə, qadın və uşaqların hüquqlarının qorunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən 14 yanvar 1998-ci il tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. 15 sentyabr 2006-cı ildə Nazirlər Kabinetinin 211 № li qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir. Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsi "Ailə" adlı tövsiyə biblioqrafiyası hazırlamışdır. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88
**E-mail:** childlibbaku@yahoo.com

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

### Maddə 17. Ailə, uşaqlar və dövlət

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir.

### Maddə 34. Nikah hüququ

I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar

əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar.

## "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək mərkəzlərinin təhvili haqqında Saziş"i imzalamaq səlahiyyətinin verilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. "Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatlarının "Uşaqların Xilası" ("Save the Children") Təşkilatı arasında Uşaq və Ailələrə Dəstək mərkəzlərinin təhvili haqqında Saziş"i Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişi Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Kamran qızı Hüseynovaya verilməsi barədə Amerika Birləşmiş Ştatları tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 27 dekabr 2010-cu il

№ 1252

## “Görkəmli şəxsiyyətlərin ailə bağlı deyimləri”

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır

**Heydər Əliyev,**
*Ümummilli lider*

Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

***

Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq, analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

***

Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir.

***

Ailə xüsusi, mürəkkəb insan münasibətləri aləmidir. Burada böyük nəzakət, həssaslıq, şəxsiyyətin ləyaqətinə, ailənin mənafeyinə hörmət və ehtiram lazımdır.

***

Ailə insanlıq tarixinin ilk müəssisəsidir. Nəsillər oradan boy atır, orada böyüyür. Xalqlar da gücünü, bütövlüyünü ailələrə bağlayır.

***

Ailə mərhəmət yurdu, əxlaq məktəbi, millətin sinəsində vuran ürək və mənəviyyat qalasıdır.

**"Füyuzat" jurnalından**

***

Hər gənc ailənin gələcək səadəti birinci növbədə ailə başçısının ağıllı hərəkət etməsindən asılıdır.

**İlyas Əfəndiyev**,
*Azərbaycan nasiri və dramaturqu*

***

Həqiqi sirdaşlıq evlilikdə ortaya çıxır.

**Lui Paster,**
fransız alimi

***

Evlilik ağacların peyvənd edilməsinə oxşayır. Peyvənd tutarsa, daha çox və keyfiyyətli məhsul əldə edilir. Peyvənd tutmazsa, heç cır meyvə də yetişmir.

**Mari Fransua Arue Volter**

*fransız filosofu və yazıçısı*

***

Ailəni dəstəkləmək və gücləndirmək cəmiyyətə rifah, dövlətə də qüvvət deməkdir.

**Turqut Özal ,**

*Türkiyə Cümhuriyyətinin 8-ci prezidenti*

***

Ailə pisliklərin sığınacaq tapa bilmədiyi ən möhtəşəm və alınmaz qala kimidir.

**Endryu Vilson,**

*Amerika aktyoru*

***

Bir ailəni idarə etmək bir dövləti idarə etməkdən heç də asan deyildir.

**Mişel de Monten,**

*fransız filosofu və yazıçısı*

***

Ailə cəmiyyətin əsasıdır; onu qoruyun: ailənin dağılmasına gətirib-çıxaran hər şey cəmiyyətin də dağılmasına gətirib-çıxarar.

**Uilyam Balter,**

*irland yazıçısı və dramaturqu*

***

Hər bir ailə bir tarixdir. Hətta oxuya bilənlər üçün bir dastandır. Ailə həyatının gözəlliyi kimi heç bir şey yoxdur.

**Oskar Uayld,**
*ingilis yazıçısı*

***

Bir məmləkətin yüksəlişi ev və ailə məhəbbəti ilə bağlıdır.

**Çarlz Dikkens,**

***

Hər şeydə olduğu kimi, ailə həyatında da daxili rahatlıq zənginlikdən üstündür.

**Jan Batist Molyer,**
*fransız dramaturqu*

***

Qəlblərin geniş olduğu yerdə ev dar gəlməz.

***Johann Volfqanq Hote,***
*alman şairi və mütəfəkkiri*

***

Bir evin gözəlliyi rahatlıqdır. Bir evin sevinci sevgidir. Bir evin zənginliyi uşaqdır. Bir evin qanunu xidmətdir. Bir evin rifahı məmnun olan könüllərdir.

**Henri Teylor,**
*Amerika alimi*

***

Qadın elə bir mələkdir ki, bizi uşaq ikən qoruyur, gənc ikən xoşbəxtliyi üçün çalışır, qocalanda isə təsəlli verir.

**Avreli Avqustin,**
*Qədim Roma filosofu*

## Giriş

Yetişən gənc nəslin ailədə düzgün tərbiyə olunması mühüm pedaqoji problem olmaqla bərabər, həm də cəmiyyətin, dövlətin prioritet məsələlərindən biridir. Çünki cəmiyyətin inkişafı, onun uğurlu gələcəyi bir çox cəhətdən yetişən nəslin tərbiyəsindən asılıdır.

Ulu öndərimiz Heydər Əliyev ailə tərbiyəsi ilə əlaqədar deyirdi: "Ailə tərbiyəsi öz xarakterinə görə nadir bir haldır. Bu tərbiyə ata-ananın övlada məhəbbəti və uşaqların da ata-anaya bu cür hissləri kimi bir mənəvi əsas üzərində qurulur... Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən bu gün haqqında yox, Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi də Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır".

Şəxsiyyətin əsasını qoyan cəmiyyətin ilkin struktur vahidi ailədir. Məhz ailədə ilk tərbiyə alınır və uşaqlar ilk sosial təcrübəyə yiyələnir, bir şəxsiyyət kimi formalaşırlar. Ailə ilk tərbiyə ocağı kimi böyüyən uşağın gələcək inkişafında, taleyində mühüm rol oynayır. Uşaq böyütmək, ərsəyə çatdırmaq hər bir valideynin qarşısında duran ən çətin, məsuliyyətli və eyni zamanda şərəfli bir işdir. İnsan nəslinin sağlam doğulub, boya - başa çatmasında və düzgün tərbiyəsində ailənin əsas xüsusi funksiyaları özünü büruzə verir.

Uşaq dünyaya gəldiyi gündən valideynlərin üzərinə böyük bir yük, cavabdehlik düşür. Onlar çalışmalıdırlar ki, körpənin qayğısına qalıb, onu sağlam böyüdüb, cəmiyyət üçün yararlı

vətəndaş kimi yetişdirsinlər. Valideynlərin bir-biri ilə qarşılıqlı münasibəti uşaqlar üçün bir örnək, bir ölçü vahidi olmalıdır. Ata-ana uşaqlara müraciət edərkən xoş, mehriban, əzizləyici sözlərdən istifadə etməlidir. Ailədə qarşılıqlı hörmət mövcuddursa, təbii ki, uşaqlarda da həm valideynlərinə, həm də ətrafındakı insanlara qarşı xoş münasibət formalaşacaq. Valideynlər arasında emosional münasibət nə qədər güclü olarsa və bir-birinin ehtiyaclarına nə qədər diqqət və həssaslıqla yanaşarlarsa bu, artıq onlardan asılı olmadan belə uşaqların hər bir ehtiyacını birlikdə ödəmə, hər bir məsuliyyətini birlikdə daşıma, övladlarının yaxşı və pisini birlikdə dərk edib, paylaşmaqda onlara kömək edəcəkdir. Uşaq ən çox ana ilə ünsiyyətdə olduğu üçün onun rəftarlarını və danışıqlarını təkrar edir. Deməli, cəmiyyətdə mədəniyyətin böyük hissəsi ana əməyinin məhsuludur. Bir sözlə, ana uşaq üzərindəki nüfuzu ilə onun formalaşmasında böyük rol oynayır. Xalqımızın belə bir deyimi vardır: "Dünyada atadan qüdrətli, anadan doğma, bacıdan mehriban, qardaşdan möhkəm arxa heç kəs ola bilməz". Uşaqların böyüməsində ola bilər ki, kimsə ata kimi hərəkət edə bilsin, amma ananı əvəz etmək heç vaxt mümkün deyildir.

Ailədə ata da uşağın tərbiyəsində ana qədər yaxından iştirak etməli, övladının düzgün yetişməsində anaya dəstək olmalıdır. Atanın övladını tərbiyə etməsi o dünyaya gəldiyi ilk gündən başlayır. Ata öz oğlanlarında kişi qeyrəti, kişi dəyanəti, cəsurluq, mərdlik, alicənablıq, igidlik, çətinliklərə sinə gərə bilmək, müdafiə olunmaq kimi keyfiyyətlər tərbiyə etməlidir. Qızlara isə xüsusi qayğı, nəvaziş və hörmətlə yanaşılmalı, şəxsiyyətləri, ləyaqətləri hər zaman uca tutulmalıdır. Ailədə bütün vacib məsələlərdə, xüsusən uşaq tərbiyəsi ilə bağlı hər iki

valideynin sözü üst-üstə düşməlidir. Yəni ananın sözünü ata, atanın sözünü ana müdafiə etməli, vahid tələbkarlıq olmalıdır. Uşaqların nitqi, danışıq tərzi də valideynlərin davranışı ilə birbaşa bağlıdır. Əgər valideyn övladı ilə kobud danışırsa, uşaq da dostları ilə, ümumilikdə ətrafdakılarla söhbət edərkən belə danışıq tərzi nümayiş etdirəcək. Valideynlər öz davranışları, rəftarı ilə övladlarına nümunə olmalıdırlar.

Valideynlər uşaqlara nə qədər sevgi ilə yanaşsalar, uşaqlar da bir o qədər əqli, əxlaqi və fiziki cəhətdən yaxşı inkişaf edərlər. Sevgi uşaqları hərtərəfli inkişaf etdirir. Valideynlər bəzən öz sözlərini uşaqlara hökmlə, qorxudaraq, hədə-qorxu ilə tətbiq etmək istəyirlər. Bu da gələcəkdə uşaqların psixologiyasında özünün mənfi fəsadlarını göstərəcəkdir. Uşağı təhdid etmək, ona yersiz halda qışqırmaq, günahlandırmaq kimi neqativ hallar yol verilməzdir. Bu, uşaqların sinir sisteminə mənfi təsir göstərəcəkdir. Uşaqlar sevildiklərini biləndə, hiss edəndə ki, valideynləri onları necə böyük bir məhəbbətlə sevir, onda bunu gələcəkdə öz ailəsində də tətbiq edəcəkdir. Uşağı sevməklə bərabər, onların sevimli olmalarını da öyrətmək lazımdır. Daha sonra onlar da başqalarına sevgi və məhəbbət göstərəcəklər. İnsan əvvəlcə öz valideynlərinə sevgi göstərir, sonra həyat yoldaşına, sonra uşaqlara, daha sonra nəvələrə öz sevgi və məhəbbətini bildirir. Uşaqlara sevgi və qayğı göstərmək böyüklər üçün heç də çətin, mürəkkəb bir iş deyildir, əksinə bu, çox asanlıqla başa gəlir. Bunu edən böyüklər özü də sevinir, fərəhlənir və özünü xoşbəxt hiss edir, onlar hər cür stressdən uzaq olmuş olurlar. Uşaqlar böyüklərə sevgi yaşatdıqca böyüklər xoşbəxt olurlar, böyüklərdə məşğulluq yaranır, onlara öz istəklərini necə yerinə yetirməyi öyrədir.

Valideynlə uşaq arasında o qədər güclü əlaqələr olmalıdır ki, onun sayəsində uşaq əmin olmalıdır ki, valideyn onun tərəfindədir və qəbul edilən qərarlar onun xeyrinədir. Həmçinin, eyni zamanda, valideyn özünü uşağın yerində hiss etməli, bu qadağaların ona necə təsir etdiyini bilməlidir. Ailədə uşaqlar məhəbbətlə idarə edilməlidir. Ən mühüm məsələ odur ki, uşaqlara böyük ehtiramla yanaşmaq və onlarla kobud rəftardan çəkinmək lazımdır. Professor Rüfət Hüseynzadə "Ailə pedaqogikası" dərsliyində qeyd edir ki, kobud sözlər uşaqların xarakterini sərtləşdirir, ürəklərini yaralayır, çox vaxt bu yaraları sağaltmaq çətin olur və bəzən də heç vaxt sağalmır. Bir Çin atalar sözündə deyilir: "Övladınız ovcunuzda tutduğunuz quş kimidir, bərk sıxsanız ölə bilər, boş buraxsanız uçub gedər". Övladlarımızla dost olmalı, onlara bir şəxsiyyət kimi yanaşmalı, problemlərin həllində onların da fikirlərini soruşmalı, onlara dəyərli olduqlarını hiss etdirməli, vətənə, xalqına dəyərli övlad kimi yetişdirməliyik.

## Uşaq və Ailələrə Dəstək Mərkəzləri




Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin regionlarda 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi fəaliyyət göstərir.

Ölkə Prezidentinin Sərəncamı ilə 2007-ci ildə Şüvəlan və Goranboy Mərkəzləri, 2010-cü ilin dekabrında isə daha 9 mərkəz (Zaqatala, Qəbələ, İsmayıllı, Göygöl, Ağdam, Hacıqabul, Saatlı, Sabirabad, Zərdab) Dövlət Komitəsinin tabeçiliyinə verilib.

Dəstək Mərkəzləri həssas ailələrə və şəxslərə yönəlmiş dəstək tədbirləri həyata keçirir, ailə, qadın və uşaq məsələləri ilə bağlı müxtəlif sosial layihələr və proqramlar hazırlayaraq icra edir, məişət zorakılığı, erkən nikah, narkomaniyanın qarşısının alınması, həmçinin ailə dəyərlərinin, sağlam həyat tərzinin

təbliği, gender mədəniyyətinin formalaşdırılması üzrə əhalinin maarifləndirilməsi işləri aparır, validеynlərin və mütəxəssislərin bacarıqlarının artırılması məqsədilə təlimlər təşkil edir. Mərkəzlərdə direktor, baş mühasib, sosial iş üzrə mütəxəssis-psixoloq, sosial iş üzrə mütəxəssis, sosial pedaqoqlar, fiziki tərbiyə rəhbəri (təlimatçı) çalışır.

2023-cü il ərzində Mərkəzlərin fəaliyyətindən 32 399 nəfər faydalanıb.

**“Ailədə psixoloji mühit, xoşbəxtlik haqqında düşüncə”**



İnsan xoşbəxtliyi onun qazandığı dəyərə bağlıdır. Ailə insanın seçimidir və xoşbəxtliyi üçün qazandığı dəyərdir. Ailəni qorumaq vətəni qorumaqdır. Ailəsinə sədaqət dövlətinə sədaqətdir.

Xoşbəxt ailədə böyüyən uşaq gələcəyin nümunəvi vətəndaşıdır. Şəxsiyyətin formalaşmasında emosional dəstək maddi dəstəkdən daha vacibdir. Emosional rifah üçün ailədə münasibətlər xüsusilə vacibdir. “Xoşbəxtlik üçün ailə niyə vacibdir?” sualına cavab verərkən insanların şəxsiyyət kimi tamamlanması ailədən asılıdır. Ailənin münasibətlərdə müstəqilliyi fərdi məsuliyyətin inkişafını təşviq edir. Ailədə mənalı münasibətlər mənsub olmaq ehtiyacını tənzimləyir. Mənsub olmaq insanların bir-birini qeyd-şərtsiz sevməsidir. İnsan mənsub olduğu zamana və məkana aiddir.

Ailədə müsbət ünsiyyət xoşbəxtliyin açarıdır. Qayğı ilə ifadə olunan fikirlər faydalı müzakirədir, mübahisə deyil. Ailə üzvləri arasında sevginin var olması mövcudluq hissidir. Valideynlər həm övladları üçün, həm də bir-birləri üçün mövcud olmalıdırlar. Valideynlər davranışları ilə nümunə yaratmalıdırlar. Ünsiyyət və davranış ailədə sevginin mühafizəçiləridirlər. Empatiya quraraq ünsiyyətin və davranışın keyfiyyətini yaratmaq olur. Xoşbəxtliyin qarşısını alacaq hadisələrin təməli qoyulmamalıdır ki, daha sonra inşa olunmasın.

Xoşbəxtliyi hər kəs eyni formada ifadə edir, amma bədbəxtliyin hekayəsi şəxsə görə dəyişir. Xoşbəxt ailələr eyni hissi yaşayırlar, amma bədbəxt ailələrin hiss etdikləri eyni deyil.

İnsan mühitə uyğunlaşan canlıdır. Ailə şəxslərin iştirak etdiyi, maddi və mənəvi ehtiyaclarını ödəyə bildiyi sosial mühitdir. Ailənin hər bir üzvü özünəməxsus emosional davranışlarını bu sosial mühitdə ifadə edir. Xoşbəxtlik və

bədbəxtlik arasında məsafə o qədər qısadır ki, ailə mühitində bu sərhəddir.

Ailə mühitində məişət ixtilafı və məişət zorakılığı ailə üzvlərində fiziki və psixoloji şiddətin yaranmasına səbəb olur. Həyat yoldaşları arasında ünsiyyət problemləri və psixoloji uyğunsuzluq yaranmış zorakılıq mühitinin başlanğıc nöqtəsidir. Ailədaxili uyğunsuzluq və ailədaxili yaşanan problemlər depressiya, patoloji narahatlıq, yuxusuzluq, post travmatik stress pozuntusu və cinsi problemlərlərə səbəb olur.

Ailədə məişət zorakılığı güc və təzyiq tətbiq etməklə fiziki və ya psixoloji zərər verən bütün davranışlar kimi müəyyən edilir. Məişət zorakılığı ailə üzvlərindən birinə ailənin digər üzvləri tərəfindən psixoloji və fiziki hücumudur. Ailədə emosional və iqtisadi zorakılıqlar da şəxsi çətin hala salır. “Çətin hal” anlayışının formalaşması ailədəki məcburiyyətdən yaranır. Həyat keyfiyyətinin yaxşılaşdırılması üçün ailə üzvləri arasında emosional və iqtisadi münasibətlər aydın olmalıdır. Münasibətlərin idarəçiliyində ailənin bütün üzvlərinin iştirakçılığı təmin edilməlidir.

Rəqəmsal dünyada kommunikasiya texnologiyalarının inkişafı ilə müşayiət olunan məişət problemləri həyat yoldaşları arasında xəyanət və aldatma fenomen olaraq müşahidə edilir. Xüsusilə mobil telefon, internet və sosial medianın geniş yayılması həyat yoldaşlarının aldatma və xəyanətlə qarşılaşmalarına səbəb olur.

Ailənin kiçik dövlət olduğunu qəbul ediriksə, uşaqlar da ailənin özəyidir. Ailənin psixoloji sağlamlığı cəmiyyətə faydalı vətəndaşlar yetişdirməsinə töhfələr verir. Hər bir uşağın yaşamaq hüququ var. Hər bir uşaq sağlam mühitdə mədəni və mənəvi cəhətdən inkişaf etməlidir. Valideynlər övladlarını

hərtərəfli inkişaf etdirmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplərlə böyütməlidirlər. Ailədə iştirakçı olan şəxslər psixoloji sağlamlıqlarını fikirlərində və davranışlarında vərdişə çevirməlidirlər. Xoşbəxtliyi hər kəs eyni formada ifadə edir, amma bədbəxtliyin hekayəsi şəxsə görə dəyişir. Xoşbəxt ailələr eyni hissi yaşayırlar, amma bədbəxt ailələrin hiss etdikləri eyni deyil.

"Ailə daxilində inam və həmrəylik qurulmazsa, şəxslər güclü stress və gərginlik yaşayırlar. Belə insanlar özlərinə də etibar edə bilmirlər".

Ailə daxilində qarşılıqlı əlaqə uşaqların da hisslərinin formalaşmasına səbəb olur. Şəxsin psixikasında yaranmış böhranlar özünün vacib hesab etmədiyi ailə mühitlərinə reaksiya kimi qiymətləndirilir. Ailədə dəyər hissinin formalaşması şəxslərin özünü sübut etmək üçün hesab olunandan artıq hərəkətə ehtiyac duymur. Ailə mühitində münasibətlər söhbət etməklə tənzimlənir. Ailənin dəyər yaratması üzvlərin ləyaqət anlayışına münasibətindən asılıdır. Yüksək mənəvi keyfiyyətləri qoruyan şəxslər ailədə etibarlı mühit yaratmış olurlar.

Ailədə etibarlı mühit ailə üzvlərinin təhlükəsiz və ailədən kənar təhlükəli hadisələrin ailədən uzaq tutulacağından asılıdır. Ailədə böyüyən uşaq evdə özünü təhlükəsiz hesab etmirsə, uşaq başqa mühitlərə və şəxslərə üz tutur. Uşağın ailə ilə münasibəti fərqli müstəvidə inkişaf edir. Etibarlı mühitin təməli empatiya hissinin uşağa nümunə göstərilməsidir. Uşaq valideynləri arasındakı münasibəti olduğu kimi qəbul edir. Necə eşidirsə, elə də danışır, necə görürsə, elə də davranır. Ailə daxilində etibarlılıq və həmrəylik varsa, ailədən kənarda yaşanan hadisələr ailədə böhran yaratmır. Etibarlılıq hissinin hakim olduğu ailələr xarici təsirlərdən xilas olmaq gücündədirlər. Ailənin

özgüvəninin formalaşması üçün xarici təsirlər uzaq tutulmalıdır. Ailə daxilində inam və həmrəylik qurulmazsa, şəxslər güclü stress və gərginlik yaşayırlar. Bu insanlar özlərinə belə etibar edə bilmirlər.

Xoşbəxtliyin düsturu yoxdur, amma üsulu var. Xoşbəxtliyin üsulu odur ki, həll edilməli olan problemlər zamanında həllini tapmalıdır.

Ailə xoşbəxtlik mühitidir. Xoşbəxtliyin olmadığı mühit ailə deyil, sistemdir. Bir qrup şəxsin məcburiyyətlə davam etdirdiyi mühitə də ailə deyə bilərik. Ailədə maddi və mənəvi ehtiyacların qarşılanması ailənin xoşbəxt olmasını formalaşdırır. Bütün ehtiyaclar qarşılıqlı münasibətlərlə təmin edilməlidir. Özünü evində dəyərli hiss edən şəxs xoşbəxt olur, iş fəaliyyəti də ona xoşbəxtlik gətirir və faydalılıq təsirini gücləndirir. Xoşbəxtliyin düsturu yoxdur, amma üsulu var. Xoşbəxtliyin üsulu odur ki, həll edilməli olan problemlər zamanında həll edilməlidir.

Ailə mühitində valideynlər öz hərəkətləri və sözləri ilə övladlarına məsuliyyət hissini öyrətməlidirlər. Ailədə hər kəs məsuliyyət hissini bölüşməlidir. Uşaqlara da yaşlarına uyğun olaraq məsuliyyət qoyulmalıdır. Ailədə bütün məsuliyyətləri öz üzərinə götürən, övladlarını məsuliyyətdən xilas edən valideynlər öz həyatlarını formalaşdıra bilməyən, daim başqalarının idarəsi altında olan şəxsiyyətlər yetişdirirlər. Bu cür mühitdə yetişən fərdlər, həyatlarında baş verən hadisələrə görə hər zaman başqalarını məsuliyyətə cəlb edirlər.

Uşağa hər şeyi hazır vermək qayğı deyil. Məsuliyyət hissinin inkişaf etdirilməsi üçün çətinliklərin öhdəsindən gəlməyi öyrətmək lazımdır. Müxtəlif yaşlarda çətinliklərlə necə mübarizə aparmaq izah edilməlidir. Problemlər özgüvənsizlik və

başqalarından asılılıq yaratmamalıdır. Problemlər şəxsin özünüdərk prosesini gücləndirməlidir. Uşaqların öz istedadlarını kəşf etmələri üçün çətinlik və təcrübə vacib meyarlardır. Gələcəkdə özünüifadə və özünütəsdiq problemi yaşayan şəxslər uşaqlıq dövrlərində öz çətinliklərini dərk etməyənlərdir.

Ailə “mən” ideyası ilə formalaşmamalıdır. Ailə “biz” deyərək davam edən ideyanı formalaşdırmalıdır.

Ailədə sağlam psixoloji mühitin olmaması uşağın daimi qorxu içində böyüməsi ilə nəticələnir. Özünü ifadə edə bilməyən uşaq mühakimə olunmaqdan və cəzalandırılmaqdan qorxur. Öz həyatını və təcrübələrini zənginləşdirmək üçün ailədə sağlam mənəvi mühit olmalıdır. Müstəqil yaşa çatana qədər uşağı hansısa ideoloji baxışa təhrik etmək olmaz. Sağlam mənəvi mühit ailənin övladına verə biləcəyi ən vacib prosesdir. Uşaqların şəxsiyyət kimi yetişməsində “sevmək” və “müsbət insani münasibətlər” keyfiyyətləri bünövrə rolunu oynayır. “Başqalarının həyatına mane olmamaq” ideyası mədəniyyət olaraq təlqin edilməlidir. Mənəvi olaraq qazandıqları onun şəxsiyyət kimi yetişməsində bələdçi olacaqdır.

Ailədə psixoloji mühitin sağlam olması üçün ehtiyacların yaratdığı psixoloji uyğunsuzluqları aradan qaldırmaq lazımdır. “Mən beləyəm!”-deyərək davam edən davranışlar ailədə münaqişə yaradır. Ailə “mən” ideyası ilə formalaşmır. Ailədə “biz” deyərək ifadə etdiyimiz fikirlər müzakirənin mübahisəyə çevrilməsinə zəmin yaratmır.

Ailədə psixoloji mühitin sağlamlığı şiddətdən, xəyanətdən və yalandan uzaq olmaq, etibarlı və sağlam ünsiyyət qurmaq, sevgi və empatiya hissini gücləndirməklə formalaşır!

## Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin rolu



Yeniləşmə və qloballaşma şəraitində informasiyaların sürətli inkişafı, kütləvi kommunikasiya və təbliğatın genişlənməsi, cəmiyyətdə özünü göstərən bu və ya digər proseslər ailədaxili məsələlərə də təsir göstərir. Bu kontekstdə ailədaxili və şəxsiyyətlərarası münasibətlər məsələsi də müasir pedaqogika və psixologiyanın aktual problemlərindən birinə çevrilib.

Ailədaxili münasibətlərin sağlam peadqoji, psixoloji əsaslar üzərində, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirən amillərdəndir. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və münasibəti ilə şərtlənir. Bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir.

V.A.Suxomlinski qeyd edirdi ki, uşaqların əsas tərbiyə məktəbi ər və arvad, ata və ana arasındakı qarşılıqlı münasibətdir. Odur ki, ailədə tərəflərin əsas, başlıca rolu bir-birini qavramaq və anlamaqdır. Bu anlama və münasibət ailənin gələcək planlarını qurmaqda vacibdir.

Ailədaxili münasibətlər kontekstində valideynlərin uşaqları ilə münasibəti də önəmli əhəmiyyət kəsb edir. Bu məsələ hələ lap kiçik yaşlarından, məktəbəqədər dövrdən başlayır. Uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətrafdakılarla rəftar və davranışında, idrak fəallığının inkişafında valideyn-övlad münasibətləri mühüm rol oynayır. Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməsində, qabiliyyət və bacarıqlarını inkişaf etdirməkdə önəmlidir.

"Ailədaxili münasibətlər kontekstində valideyn-uşaq münasibətləri tarixən milli xüsusiyyətlərin tələblərinə uyğun olaraq, eyni zamanda valideynlərin özlərinin düçüncə tərzinə, fərdi xüsusiyyətlərinə uyğun əsaslar üzərində qurulur. Uşaqların şəxsiyyətinin formalaşmasında və psixi inkişafında aparıcı rol oynayan ünsiyyət tələbatı da məhz bu münasibətlərin gedişində bu və ya digər dərəcədə ödənilir. Qeyd etdiyimiz kimi sağlam, düzgün münasibət sağlam, formalaşmış gələcəyə yol açır. Təəssüflə qeyd etmək lazımdır ki, bəzi vaxtlarda ailədaxili münasibətlərin (ər-arvad) nizamsızlığı uşaqların taleyində neqativ izlər buraxır".

Uşaqlarla rəftar və davranış zamanı valideynlər bəzi vaxtlarda birtərəfli iştirak edirlər. Valideynlərdən birinin uşağı çox əzizləməsi, yaxud tez-tez onun üçün "havadarlıq" etməsi, "hələ uşaqdır düzələr" və s. bu kimi mühafizəkar mövqeləri uşaqların tərbiyəsində birtərəfli ölçülərə gətirib çıxarır. Çünki

ailənin tərbiyə imkanları valideynlərin və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur.

Pedaqoji ədəbiyyatlarda ailədə düzgün aparılmayan tərbiyənin əsas tipləri sırasında yer alan hiperqəyyumluğun bir növü olan "pərəstiş" tipinə uyğun xarakteristika belə izah edilir: "Pərəstiş növdə uşaq daim diqqət mərkəzində olmağa adət edir, onun bütün arzu və tələbləri qeyd şərtsiz yerinə yetirilir, onu daim tərifləyirlər. Belə bir münasibətə görə, o, böyüyəndə öz imkanlarını düzgün qiymətləndirə, eqosentrizmini dəf edə bilmir, kollektiv isə onu başa düşmür. Bu hisslər ona pis təsir edir, nəticədə o, hamını təqsirləndirir, öz səhvləri barədə qətiyyən düşünmür və bu səhvlər onda ömür boyu xoşagəlməz hiss, həyəcan gətirən xarakter formalaşdırır".

Bəli, ailədə uşaqların düzgün tərbiyəsi həm ailə üçün, həm də cəmiyyət üçün əhəmiyyətlidir. Görkəmli pedaqoq A.S. Makarenko deyirdi ki, düzgün tərbiyə bizim xoşbəxt gələcəyimizdir, pis tərbiyə bizim gələcək göz yaşlarımız, əzabımızdır.

1989-cu ildə qəbul olunmuş Uşaq Hüquqları Konvensiyasının əsas ideyası uşaq şəxsiyyətidir. Konvensiyanın mühüm prinsipi uşaqlara hörmət etmək, onların hüquqlarının qorunmasıdır. Uşaqlar irqindən, dərisinin rəngindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən asılı olmayaraq dünyanın hər yerində öz hüquqlarından istifadə etməlidirlər.

Bu hüquqların qorunması ilk növbədə ailədən başlayır. Ailə uşaqların mənəvi, əxlaq tərbiyəsinə böyük təsir göstərir, onda vətənpərvərlik hissi, vətənə sevgi, əməyə məhəbbət tərbiyə etməklə, dostluq, yoldaşlıq, böyüklərə hörmət, doğruçuluq, sadəlik və təvazökarlıq, qənaətçillik, intizamlılıq və s. kimi müsbət insani keyfiyyətlər formalaşdırır.

Ailə münasibətlərinin əsasını ər və arvad münasibətləri təşkil edir. Onlar ailənin qoşa qanadlarıdır. Doğrudan da, ailədə ata-ana əsas sima olduqları üçün onların arasında yaranmış münasibət uşaqların bu günü və gələcəyi üçün istiqamətləndiricidir. Xüsusən də, Azərbaycan ailəsində bu münasibətlər daha çox diqqəti cəlb edir. Özünəməxsus spesifik çalarları ilə xarakterizə olunan Azərbaycan ailəsi kökə, nəslə, uşağa bağlı olduğu üçün həmişə bütövlüyündə, ülviliyində seçimli olub. Ər və arvad arasındakı münasibətin məzmununu qarşılıqlı hörmət və qayğı, səmimiyyət və mehribanlıq təşkil edir. Odur ki, bir-birinin nüfuzunu saxlamaq, uşaqların tərbiyəsində vahid tələbləri gözləmək ailədaxili münasibətlərdə əsas faktordur. İnsan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır. Pedaqoji və psixoloji tədqiqatlardan aydın olub ki, uşağın sağlam psixoloji inkişafa malik olması üçün onun ana ilə ünsiyyəti (emosional ünsiyyət), xüsusən də, ilk üç ildə əhəmiyyət kəsb edir. Uşağın psixoloji ehtiyacını sevgi, məhəbbət, qayğı, ülvi hisslərin məcmusu kimi qiymətləndirmək mümkündür. Bu dövrlərdə əmək və oyun fəaliyyətinin inkişafı da uşaqların psixikasına müsbət təsir göstərir.

Ailədə uşaqların mənəvi-psixoloji inkişafının əsas göstəricilərindən biri də onların idrak fəallığının inkişafıdır ki, bu da zamanının tələbidir. Artan informasiyalar, siyasi və sosial-iqtisadi həyatdakı irəliləyişlər uşaqların istedad və zehni qabiliyyətlərinin genişlənməsi məqsədini qarşıya qoyur.

Zehni, intellektual inkişaf psixoloji prosesdir. Bu prosesin anadangəlmə və irsiyyətlə bağlılığı fikri ilə yanaşı alimlər qeyd edirlər ki, sağlam psixoloji mühit və şəraitin yaradılması da aparıcı şərtlərdən sayılır. Bu mənada müasir dövrdə

valideynlərin pedaqoji savadı və mədəniyyətinin yüksəldilməsi vacibdir.

Xüsusilə də, anaların savadlı olması övlad tərbiyəsində, ailədaxili münasibətlərin düzgün qurulmasında zəruridir. Ailədaxili münasibətlər, ailənin psixoloji iqlimi, “ər-arvad”, “valideyn-uşaq” və “uşaq-uşaq” münasibətləri ailə tərbiyəsinin əsaslarıdır. Çünki ailədaxili və onun ətrafdakı psixoloji iqlim şəxsiyyətin formalaşmasında mühüm əhəmiyyət kəsb edir və şəxsiyyətlərarası münasibətlərin özünəməxsus sahəsini təşkil edir.

Ailə tərbiyəsinin əsas prinsiplərindən biri uşaqlara hörmət və tələbkarlıqdır. Uşaqlara hər yaşda, hər cür şəraitdə hörmət edilməlidr. Onların şəxsiyyət və ləyaqətləri tapdanmamalıdır. Uşaqları ələ salmaq, təhqir etmək, pərt etmək, gülünc vəziyyətə salmaq, aldatmaq, onlara qarşı kobudluq etmək, psixi və fiziki zorakılıq etmək, başqalarından üzr istəməyə məcbur etmək qətiyyən yol verilməzdir.

Ailədə uşaqlar məhəbbətlə idarə edilməlidir**.** Belə olduqda uşaqlar da valdeynlərinin getdikləri yolla gedir və çox nadir hallarda bir-biri ilə kobud danışırlar. “Daim əmr şəklində tapşırıqların verildiyi, tez-tez kəskin iradlar eşidildiyi və sərt cəzaların yerinə yetirildiyi bir çox ailələrdə tərbiyə işi düzgün qurulmur. Kobud sözlər uşaqların xarakterini sərtləşdirir və ürəklərini yaralayır, çox vaxt bu yaraları sağaltmaq çətin olur. Ən kiçik səhvlərə görə uşağın ciddi şəkildə cəzalandırılması ilə müşayiət olunan sərt tərbiyə uşağı daim qorxu içərisində saxlayır”**.**

Uşaqlar ən kiçik ədalətsizliyi belə hiss edirlər və bu hal bəzilərini o dərəcədə bədbinliyə gətirib çıxarır ki, artıq onlara əmr edən yüksək, əsəbi səsə fikir vermirlər və cəzalanmaqdan

qorxmurlar. Uşaqları əhəmiyyətsiz xətalara görə həddindən artıq sərt tənqid etmək çox təhlükəlidir. Həddindən artıq ağır tənqid və sərt qaydalar bütün qayda-qanunlara hörmətsiz yanaşmağa gətirib çıxarır və bu cür şəraitdə tərbiyə olunmuş uşaqlar çox tezliklə hər cür qanunlara hörmətsizlik göstərəcəklər. Valideynlər yalnız əxlaqlı həyat sürməklə və təmkin göstərməklə övladlarına hörmətlə yanaşdıqda düzgün xarakter formalaşdıra bilərlər.

Əgər ana uşağına ehtiramla yanaşır, onu əzizləyirsə, ona qarşı kəskin sözlərdən və hərəkətlərdən çəkinirsə, bu zaman uşaq valideynlərinin kiçik iradından təsirlənib, öz səhvini etiraf edəcək və özünü yaxşı aparmağa çalışacaqdır.

Göründüyü kimi, sadalanan bu fikirlərin təməlində valideyn sevgisi və valideynlərin şəxsiyyətlərarası münasibətlərinin necə təşkili məsələləri dayanır. Bu mənada tərbiyə prosesində valideynlər arasında fikir ayrılığı olmamalı, bir-birini təkzib etməməlidirlər. Ata və ana heç vaxt uşaqların yanında mübahisə etməməli, bir-birinin plan və fikirlərinə tənqidi yanaşmamalıdır. Əgər valideynlər fikir birliyinə gələ bilmirlərsə, onda öz məsələlərini uşaqların yanında müzakirə etməməlidirlər.

## Uşaq təhsilində ailənin rolu



Aparılan araşdırmalar xoşbəxt ailə mühitində böyüyən uşaqların, məktəb mühitində daha müvəffəqiyyətli olduqlarını göstərmişdir. Uşağın məktəb müvəffəqiyyətinin səbəbi ailə mühitinin sağlam olmasıdır. Uşaqların həbs olduğu bina evlərindəki həyatı, küçələr, çoxlu şəhərlər, azalan yaşıl təbiət və uşağın üzərində olan nəzarət və stress sağlam böyüməsinin qarşısını alır.

Təhsildəki ən böyük vəzifə heç şübhəsiz ana və ya ataya düşür. Əgər ana, ata bu vəzifəyə hazırlıqlıdırsa, üzərlərinə düşəni haqqıyla edəcəklər və ciddi bir problem yaşayacaqlar.

Əgər uşaq təhsili mövzusunda məlumatsız və hazırlıqsızdırsa, həm özləri, həm də uşağın gələcəyində böyük sıxıntılarla qarşılaşacaqlardır. Çünki günümüzdə millətlər və dövlətlər, mədəniyyət və hakimiyyət yarışı içindədir. Bu yarışda istifadə etdikləri ən təsiredici qüvvə təhsildir. Sabahın fikir adamları, sənətkarları, idarəediciləri, sərxoş, oğru və xain insanlar varsa bunlar dünənki uşaqların nəzarətsiz edilişindəndir. Qısaca uşaqlar bir millətin gələcəyinin güvəncəsidir. Onlara nə verilirsə onun qarşılığı görüləcəkdir.

Ana və atalar təkcə böyüdükləri mühitdə gördükləri ilə uşaqlarına yaxşı bir təhsil verə bilməzlər. Buna görə də, oxumaya, araşdırmaya və diqqətli olmağa məcburdurlar. Uşaq ailədə özəlliklərinin öyrənir. Milli tərbiyənin özünün buradan və sosiallaşmanın ilk addımlarını burdan atar. Bu səbəblə İslam anlayışında ailənin çox müqəddəs bir yeri vardır. Ailə üzvlərinin bir-birilə olan qan qohumluğu, eyni məkanda yaşama, eyni dəyərləri mənimsəmə, eyni sevinc və kədəri bölüşmək kimi bioloji, sosial və psixoloji ortaq tərəfləri, onların daxilindəki insani duyğuları doğurur və inkişaf etdirir. Bu inkişafın istənilən səviyyədə saxlanılmasının tək şərti, ailə üzvlərinin bir-birlərinə qarşı təhsil məsuliyyətinin üstələnməsidir.Uşaq təhsilində ailənin rolu danılmazdır. Gün keçdikcə, ailədaxili təhsilin rolu və dəyəri daha da anlaşılır. Ailədə daxili və xarici münasibətlər normal və uyğundursa, uşaq üçün möhtəşəm bir təhsil mühitidir. Düzgün və sakit, sağlam ünsiyyət mühiti olan bir ailə uşaqların təhsili və inkişafı üçün bənzərsiz bir məktəbdir. Bəzi ailələr daxili və xarici problemlər səbəbindən düzgün təhsil şəraiti yarada bilmirlər. Daxili səbəblərdən ən önəmi ailədaxili münaqişə və ünsiyyət əksikliyidir. Uşaq xarakterinin ana təməlləri 0-3 yaş dövründə başlayır. Cəmiyyətə aid həyat

görüşlər, adət-ənənələr ancaq ailənin vasitəsi ilə fərdə yönləndirilir. Cəmiyyətdə mövqe tutan düz və səhv, yaxşı və pis cəhətlər də ailə süzgəcindən keçərək, fərdin idrakına çatdırıla bilər. Beləliklə, ailə uşağın təhsilində ilk və ən mühüm rolu ifa etməkdədir.

## Ailə haqqında uşaq şeirlər

### İki uşaq

Yoldaşına bir uşaq
Dedi: – Dur gəl oynayaq.
Oynamağın vaxtıdır,
Qızılgülün taxtıdır.
Qızılgülü əkərlər,
Misqal ilə çəkərlər.
Gedək görək uşaqlar
Bağda nə cür oynaqlar.

Yoldaş dedi: – Qardaşım,
Dinmə, ağrıyır başım.
Açılsa gül olsa yaz,
Mənim könlüm açılmaz.
Mən dərsimi bilmirəm,
Oynamağı neylərəm.
Bunu dedi o birisi:
– Bu gün qoy qalsın dərsi,

İndi hələ gəl gedək,
Bağda gəzib seyr edək.
Ertə durarsan səhər,
Dərsi edərsən əzbər.
Yoldaşı verdi cavab:
– Danışma bəd-bihesab,
Sübhə bugünkü işi
Qoymaz ağıllı kişi.

Dərsimi hazırlaram,
Sonra gedib oynaram.

**Abbas Səhhət**

## Ailə albomu

Bizim də evimizdə
Ailə albomu var.
Ona baxanda sanki
Hamı yanımda olar.

Bax, bu mənim babamdı,
Bu da sevimli nənəm.
Nənəm nağıl deyəndə
Ən çox sevinən mənəm

Bu əmim, bu bibimdi,
Bu da xalamla dayım.
Mən kənddə keçirəcəm
Dayımla gələn yayı.

Sabah doğum günündü-
Anam dedi, üzülmə.
Albomdan çıxıb hər kəs
Sabah gələcək bizə.

**Mina Rəşid**

## Ailəm

Evimiz də var
Eyvanımız da.
Xorhaxor yatan
Məstanımız da.
Gözəl nənəm var
Saçı gümüşü.
“can” söyləməkdir
Nənəmin işi.

Bax, bu babamdır
Əlində əsa.
Sözü uzatmaz
Söyləyər qısa.
Anamla atam
Çalışır mənim.
Bacımla başım
Qarışır mənim.

Beş yaşında mən
Bacım yaş yarım.
Bir də varımdır
Oyuncaqlarım.
Bir əmim bir də
İki dayım var.
Filim, maşınım,
Dələm, ayım var.

**Sevinc Nuruqızı**

## UŞAQLAR DƏRSƏ GEDİR

Məktəbin qapıları
Açılıb dəftər kimi.
Uşaqlar səpələnib,
Yollara gövhər kimi.

Uşaqların səs - küyü
Məktəb zənguləsidi.
Burda ən gözəl nəğmə,
Müəllimin səsidi.

O səs bizi mindirir
Koroğlunun atına.
O səs bizi qaldırır
Göyün yeddi qatına.

O səs ana laylası,
O səs gurlayan cəngi.
O səsin ahəngində
Çalınır məktəb zəngi.

Şagirdlərin qəlbində
O nəğmənin sehri var.
Həmin səsə tuşlanıb,
Dərsə gedir uşaqlar.

Hər körpə sinəsində
Bir təmiz ürək gedir.
Hər ürəyin üstündə
Bir dəstə çiçək gedir.

**Zahid Xəlil**

\

**Nəşrlər**


- NİCAT ƏLİYEV -
AİLƏDƏ ƏXLAQ VƏ DAVRANIŞ QAYDALARI


AZƏRBAYCAN RESPUBLİKASININ
AİLƏ MƏCƏLLƏSİ


UŞAQ
TƏRBİYƏ EDƏRKƏN
TRAVMA YARADAN SƏHVLƏR
İNKİŞAFA APARAN DOĞRULAR
Medaim Yanık


- NİCAT ƏLİYEV -
CƏMİYYƏTDƏ DAVRANIŞ QAYDALARI
LİBRA KİTAB


BƏHRAM ƏMİDƏN MƏSLƏHƏTLƏR
DAVRANIŞ
QAYDALARI
QONAQLIQDA • SÜFRƏ ARXASINDA • TEATRDA MUZEYDƏ, KİNOZALDA • NƏQLİYYATDA
• KÜÇƏDƏ • AİLƏDƏ • GİGİYENA QAYDALARI


Rüfət Hüseynzadə
Lalə Allahverdiyeva
AİLƏ
PEDAQOGİKASI


Əlövsət Şirinov
UŞAQ PSİXOLOGİYASI
VALİDEYNİN UŞAQ PSİXOLOGİYASINDA ROLU


Ailə və cəmiyyətdə
Əxlaq və Davranış
Qaydaları
III nəşr

## Ədəbiyyat

## Kitablar

### 2004

1. **Həsənova, M.** Azərbaycanda ailə: hüquqi və demoqrafik aspektləri: / Məlahət Həsənova // Bakı: Nurlar.- 2004.- 28 s.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000550237

### 2009

2. **Müstəqil Azərbaycanın qadınları** / Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi.- Bakı: [s.n.], 2009.- 36 s.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000094643

## Dövri mətbuatda dərc edilmiş məqalələr

### 2010

3. **Ağayev, İ.** "KİV-də ailə məsələlərinin necə işıqlan-dırılması ilə bağlı sosioloji tədqiqatlar olmalıdır": Azərbaycan Sosioloqlar Birliyinin icraçı direktoru Əbülfəz Süleymanov: "Aparıcıların böyük əksəriyyəti qoyduqları mövzunun dərinliyini, mahiyyətini və elmi əsaslarını bilmir" / İlkin Ağayev // Palitra.- 2010.- 11 iyun.- S.5.

http://www.anl.az/down/meqale/palitra/2010/iyun/123669.htm

**2011**

4. **Azərbaycanın ailə modeli milli mənəvi dəyərlər sistemində formalaşmışdır** / AZƏRTAC // Azərbaycan.- 2011.- 22 aprel.- S.6.
http://www.anl.az/down/meqale/azerbaycan/2011/aprel/170214.htm

5. **Rüfət, S.** Ailə institutunun azərbaycan modeli... / Sultan Rüfət // Bakı Xəbər.- 2011.- 7 iyun.- S.15.
http://www.anl.az/down/meqale/baki_xeber/2011/iyun/181332.htm

6. **Rüfət, S.** Azərbaycanda ailə planlaşmasının problemləri... / Sultan Rüfət // Bakı Xəbər.- 2011.- 11 oktyabr.- S.15.
http://www.anl.az/down/meqale/baki_xeber/2011/oktyabr/204122.htm

7. **Ömərov, V.** Hüquqi dövlətdə ailə institutu / Vahid Ömərov // Səs.- 2011.- 9 dekabr.- S.10.
http://www.anl.az/down/meqale/ses/2011/dekabr/218206.htm

8. **İntiqam, N.** Möhkəm ailə sağlam cəmiyyətin təməlidir / Nicat İntiqam // Zaman.- 2011.- 15-16 dekabr.- S.9.
http://www.anl.az/down/meqale/zaman/2011/dekabr/220072.htm

**2012**

**9. Sağlam ailə sağlam gələcəyin təminatıdır** / AZƏRTAC // Azərbaycan.- 2012.- 26 dekabr.- S.5.
http://www.anl.az/down/meqale/azerbaycan/2012/dekabr/286083.htm

**2014**

10. **Aydın Xan.** Azərbaycanın çağdaş ailə modeli: necə olmalıdır / Aydın Xan (Əbilov Aydın) // Ədəbiyyat qəzeti.- 2014.- 10 oktyabr.- S.15.

11. Ailə dəyərləri milli-mənəvi irsdir // Mədəniyyət.- 2014.- 26 dekabr.- S.9.
http://www.anl.az/down/meqale/medeniyyet/2014/dekabr/412760.htm

12. **Sağlam ailə sağlam gələcəyin təminatıdır** // Azərbay-can.- 2014.- 23 avqust.- S.5.
http://www.anl.az/down/meqale/azerbaycan/2014/avqust/388322.htm

**2015**

13. **Nigar.** Hicran Hüseynova: "Ailə bizim üçün hər şeydir" / Nigar // Palitra.- 2015.- 14 avqust.- S.4.
http://www.anl.az/down/meqale/palitra/2015/avqust/451291.htm

14. **Tapdıq, Ş.** Cəmiyyətdə ailə institutu günbəgün möh-kəmləndirilir / Şəfa Tapdıq // Kaspi.- 2015.- 15-21 avqust.- S.6.

http://www.anl.az/down/meqale/kaspi_az/2015/avqust/451610.jpg

15. **Səfərov, E.** Sağlam ailə-sağlam cəmiyyət / Elgün Səfərov // İki sahil.- 2015.- 28 noyabr.- S.21.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000465508

16. **Cavanşir.** Cəmiyyətdə ailə institutu günbəgün möhkəm-ləndirilir Komitə sədri: "Vətəndaşların hüquqi mədəniyyət səviyyəsinin yüksəldilməsində Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin xüsusi rolu var" /Cavanşir // Azad Azərbaycan.- 2015.- 18 mart.- S.5.
http://www.anl.az/down/meqale/az_azerbaycan/2015/mart/427095.htm

**2016**

17. **Hacıyeva, L.** Ailə milli-mənəvi dəyərlərin daşıyıcısıdır / Lətafət Hacıyeva // Xalq qəzeti.- 2016.- 24 aprel.- S.6.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000487104

18. **Hüseynova, H.** Ailə və multikultural dəyərlər / Hicran Hüseynova // İki sahil.- 2016.- 3 may.- S.21.
http://www.anl.az/down/meqale/iki_sahil/2016/may/489325.jpg

19. **Abdullayeva, N.** Ailə məsələsində müasirliklə ənənələr birləşdirilməlidir / Nigar Abdullayeva // Palitra.- 2016.- 13 may.- S.7.
http://www.anl.az/down/meqale/palitra/2016/may/490342.htm

20. **Sevinc.** Sabah Beynəlxalq Ailə Günüdür / Sevinc // Həftə içi.- 2016.- 14-16 may.- S.3.
http://www.anl.az/down/meqale/hafta_ichi/2016/may/490600.htm

## 2017

21. **Ömərov, V.** Azərbaycanın ailə ənənələri: kiçik ailə / Vahid Ömərov // Səs.- 2017.- 24 noyabr.- S.15.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000564564

22. **Ömərov, V.** Azərbaycanın ailə ənənələri: ailə icmaları / Vahid Ömərov // Səs.- 2017.- 14 dekabr.- S.15.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000567608

## 2018

23. **Ömərov, V.** Azərbaycanda ailə hüququ / Vahid Ömə-rov // Səs.- 2018.- 16 mart.- S.15.
http://web2.anl.az:81/read/page.php?bibid=vtls000582303

## 2019

24. **Modern Azərbaycan ailə modeli** // Kredo.- 2019.- 18 sentyabr.- S.6;11.
http://www.anl.az/down/meqale/kredo/2019/sentyabr/671893(meqale).pdf

25. **Ailə dəyərlərinin möhkəmləndirilməsi cəmiyyətin mənəvi sağlamlığının əsasıdır** // Azərbaycan.-

2019.- 16 may.- S.3.
http://www.anl.az/down/meqale/azerbaycan/2019/may/652208.htm

## 2020

26. **Qazıyev, Y.** Kitabi - Dədə Qorqud abidəsində ailə tərbi-yəsi: Ailə üzvlərinin qarşılıqlı münasibətləri və ailə idarəçiliyi / Yusif Qazıyev // Kredo.- 2020.- 15 sentyabr.- S.4.
http://www.anl.az/down/meqale/kredo/2020/sentyabr/717806(meqale).pdf

## 2024

27. **Musayeva, Y.** Azərbaycan ailə modelini necə qoruma-lıyıq? / Yasəmən Musayeva // Azərbaycan.- 2024.- 26 iyun, №131.- S.16.
http://www.anl.az/down/meqale/azerbaycan/2024/iyun/901029(meqale).pdf

28. **Cəfərli, R.** "Sağlam ailə modelinin hüquqi aspektləri – Yaşıl dünya müstəvisində" mövzusunda dinləmə keçirilib / R.Cəfərli // Azərbaycan.- 2024.- 18 aprel, № 77.- S.4.
http://www.anl.az/down/meqale/azerbaycan/2024/aprel/888818(meqale).pdf

29. **Qarayeva, S.** Ailə dəyərlərinin qorunması: dövlət siya-sətində prioritet istiqamət / Sevinc Qarayeva //525-ci qəzet.-2024.- 25 iyul, №130.- S.15.
http://www.anl.az/down/meqale/525/2024/iyul/904949.htm

30. **Bayramlı, Z.** Ailə mühiti və valideyn-övlad münasibət-ləri: tərbiyə üçün zəruri keyfiyyətlər / Zakir Bayramlı // 525-ci qəzet.- 2024.-15 avqust №145.- S.11. http://www.anl.az/down/meqale/525/2024/avqust/908982.htm

**Ailə**
(tövsiyə biblioqrafiyası)

**Komputer yığımı**
**və dizayn:** **Nuray Əlizadə**

**Ünvan: AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**